# Zəfərə aparan yolun başlanğıcı: Yeni dövrün memarı

*2003-cü il 4 avqust müasir Azərbaycan Respublikasının tarixi salnaməsində taleyüklü dönüş nöqtəsini, yeni dövrün başlanğıcını simvolizə edir. Həmin gün Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən Prezident Heydər Əliyevin təqdimatı əsasında İlham Heydər oğlu Əliyev Baş nazir vəzifəsinə təyin edildi. Bu təyinat geniş siyasi prosesin - ölkənin yaxın və uzaq gələcəyi üçün strateji kursun davamlılığını təmin etmək məqsədi daşıyan, həlledici mərhələ idi. XXI əsrin astanasında Azərbaycan müstəqilliyinin ilk onilliyini arxada qoymuş, lakin hələ də ciddi çağırışlarla üz-üzə qalmışdı.*

1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Heydər Əliyevin rəhbərliyi ilə ölkə müstəqilliyin ilk illərindəki dərin siyasi böhrandan, xaos və anarxiyadan, vətəndaş müharibəsi təhlükəsindən və iqtisadi tənəzzüldən tədricən çıxmağa başlamışdı. Lakin bütün müsbət tendensiyalara baxmayaraq, problemlər də az deyildi. Ölkənin əsas problemi olan "Dağlıq Qarabağ" münaqişəsi həll olunmamışdı, ərazilərin 20 faizi Ermənistanın işğalı altında idi və bir milyona yaxın azərbaycanlı doğma yurdlarından didərgin düşərək məcburi köçkün həyatı yaşayırdı. İqtisadiyyatda neft amilindən ciddi asılılıq yaranmışdı və qeyri-neft sektorunun inkişafı ləng gedirdi.




Bu kontekstdə 2003-cü il ölkə üçün növbəti prezident seçkiləri ili kimi başladı. Əsas məqsəd Heydər Əliyev tərəfindən müəyyən edilmiş siyasi və iqtisadi kursun dəyişməzliyini, ölkədə on il ərzində çətinliklə əldə edilmiş sabitliyin qorunub saxlamaq və hakimiyyətin hər hansı sarsıntı olmadan ötürülməsini təmin etmək idi.

Cənab İlham Əliyev o dövrdə artıq Azərbaycanın siyasi və iqtisadi həyatında kifayət qədər tanınan və təcrübəli şəxs idi. Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun məzunu, tarix elmləri namizədi olan İlham Əliyev 1994-cü ildən etibarən Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) vitse-prezidenti, daha sonra isə birinci vitse-prezidenti vəzifəsində çalışaraq ölkənin yeni neft strategiyasının formalaşdırılması və həyata keçirilməsində birbaşa və fəal iştirak etmişdi. "Əsrin müqaviləsi"nin və sonrakı neft-qaz sazişlərinin hazırlanması, transmilli enerji şirkətləri ilə mürəkkəb danışıqların aparılması, Bakı-Tbilisi-Ceyhan kimi nəhəng və strateji əhəmiyyətli ixrac kəməri layihəsinin reallaşdırılması istiqamətində görülən işlərdə mühüm rolu olmuşdur. Bu fəaliyyəti ona həm iqtisadi idarəetmə sahəsində ciddi təcrübə qazandırmış, həm də Qərbin aparıcı siyasi və işgüzar dairələri ilə etibarlı əlaqələr qurmasına imkan yaratmışdı. İqtisadi fəaliyyəti ilə paralel olaraq, siyasi arenada da addım-addım irəliləyirdi. 1995-ci və 2000-ci illərdə iki dəfə Milli Məclisin deputatı seçilmiş, 1997-ci ildən Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti kimi ölkədə idmanın və olimpiya hərəkatına rəhbərlik etmişdi. Partiya xətti ilə də irəliləyərək 1999-cu ildə YAP sədrinin müavini, 2001-ci ildə isə sədrin birinci müavini təyin olunmuşdu. Lakin onun siyasi varis kimi formalaşmasında xüsusi rol oynayan mərhələ 2001-2003-cü illərdə Avropa Şurası Parlament Assambleyasında (AŞPA) Azərbaycan nümayəndə heyətinə rəhbərlik etməsi oldu. Bu platformada o, Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması, erməni lobbisinin təbliğat maşınına qarşı effektiv mübarizənin aparılması istiqamətində məqsədyönlü fəaliyyət göstərdi. Məhz həmin dövrdə AŞPA-da ilk dəfə olaraq Azərbaycanın işğal olunmuş ərazilərin, ermənilərin törətdikləri cinayətlər barədə sənədlər yayıldı. 2003-cü ilin yanvarında İlham Əliyev AŞPA sədrinin müavini və Büro üzvü seçildi ki, bu da onun Avropanın siyasi məkanında yüksək nüfuz qazandığının və beynəlxalq parlament diplomatiyası sahəsində mühüm təcrübə topladığının göstəricisi idi. Beləliklə, gənc yaşına, Qərb təhsilinə, beynəlxalq təcrübəsinə, iqtisadi və siyasi sahədəki bilik və bacarıqlarına görə İlham Əliyev hakim komanda üçün ən məqbul və hazırlıqlı namizəd kimi qəbul olunurdu.

İlham Əliyevin Baş nazir təyin edilməsi prosesi Azərbaycan Respublikasının Konstitusiyası çərçivəsində həyata keçirildi. Ölkənin Əsas Qanununun o dövrdə qüvvədə olan redaksiyasına görə, Baş nazir Milli Məclisin razılığı ilə Azərbaycan Respublikasının Prezidenti tərəfindən təyin edilirdi. Proses 2003-cü il avqustun əvvəllərində başladı. Uzun illər hökumətə rəhbərlik etmiş Baş nazir Artur Rasi-zadə səhhəti ilə əlaqədar tutduğu vəzifədən azad edilməsi barədə ərizə ilə Prezidentə müraciət etdi. Prezident Heydər Əliyev bu müraciəti təmin etdi və yeni Baş nazir vəzifəsinə İlham Əliyevin namizədliyinin Milli Məclisə təqdim olunması barədə təqdimat imzaladı. 2003-cü il avqustun 4-də bu məsələnin müzakirəsi üçün Azərbaycan Respublikası Milli Məclisinin xüsusi iclası çağırıldı. Hakim Yeni Azərbaycan Partiyasını və ona müttəfiq olan qüvvələri təmsil edən deputatlar öz çıxışlarında bu təyinatın tarixi zərurətdən irəli gəldiyini, ölkədə Heydər Əliyev siyasətinin davamlılığını və sabitliyi təmin etmək üçün atılmış yeganə düzgün addım olduğunu vurğulayırdılar. Onlar İlham Əliyevin gəncliyini, müasir idarəetmə biliklərini, xarici dilləri bilməsini, beynəlxalq aləmdəki təcrübəsini, xüsusilə də Azərbaycanın neft strategiyasının həyata keçirilməsində və Bakı-Tbilisi-Ceyhan kimi taleyüklü layihənin reallaşmasındakı rolunu xüsusi qeyd edərək, bu məsuliyyətli vəzifənin öhdəsindən layiqincə gələcəyinə əminliklərini ifadə edirdilər. Bu təyinatın, həmçinin Prezidentin səhhətində yaranmış problemlərlə əlaqədar idarəetmədə yarana biləcək hər hansı bir boşluğun qarşısını alacağı bildirilirdi. Səsvermədə iştirak edən deputatların böyük əksəriyyəti, 101 nəfər deputat, İlham Əliyevin namizədliyinin lehinə səs verdi. Səsvermədən dərhal sonra, elə həmin gün, avqustun 4-də, Prezident Heydər Əliyev "İ.H.Əliyevin Azərbaycan Respublikasının Baş naziri təyin edilməsi haqqında" Fərman imzaladı. Fərman imzalandığı gündən qüvvəyə mindi və bununla da İlham Əliyev hüquqi cəhətdən ölkənin yeni hökumət başçısı oldu.

Cənab İlham Əliyevin Baş nazir kimi fəaliyyəti çox qısa dövrü 2003-cü ilin avqust ayının 4-dən noyabrın əvvəlinə qədər olan təxminən üç aylıq müddəti əhatə etsə də, böyük əhəmiyyət daşıyırdı. Bu, onun üçün prezidentlik fəaliyyətinə başlamazdan əvvəl bir növ hazırlıq, dövlət idarəçiliyinin bütün mexanizmlərinə birbaşa rəhbərlik etmək və təcrübə toplamaq mərhələsi oldu. Hökumətin fəaliyyətində icra intizamı gücləndirildi, qəbul edilən qərarların vaxtında və keyfiyyətlə yerinə yetirilməsinə nəzarət artırıldı. Nazirlər Kabinetinin tərkibində hər hansı dəyişiklik edilməsə də, hökumət üzvləri ilə birlikdə ölkənin sosial-iqtisadi inkişafı, müdafiə qüdrətinin artırılması, beynəlxalq mövqelərinin möhkəmləndirilməsi kimi prioritet istiqamətlər üzrə fəaliyyət davam etdirildi. Baş nazir kimi onun ilk xarici səfərini qardaş Türkiyə Respublikasına etməsi də mühüm siyasi mesaj idi. Sentyabr ayında baş tutan bu səfər zamanı o, Türkiyənin o vaxtkı Baş naziri Rəcəb Tayyib Ərdoğan və digər rəsmi şəxslərlə görüşərək ikitərəfli münasibətlərin bütün sahələrdə inkişaf etdiriləcəyini, xüsusilə Bakı-Tbilisi-Ceyhan kimi nəhəng enerji layihələrinin uğurla başa çatdırılması üçün birgə səylərin davam etdiriləcəyini bəyan etdi. Bu səfər bir daha göstərdi ki, Azərbaycanın xarici siyasətində Türkiyə ilə strateji müttəfiqlik və qardaşlıq münasibətləri prioritetdir.

2003-cü il 15 oktyabrda prezident seçkiləri keçiriləcəkdi. Baş nazir İlham Əliyev prezidentliyə namizəd idi. Seçki kampaniyası davam etdiyi vaxtda oktyabrın 1-də, Prezident Heydər Əliyev Azərbaycan xalqına tarixi müraciət etdi. Bu müraciət televiziya vasitəsilə səsləndirildi və seçki kampaniyasının gedişinə həlledici təsir göstərdi. Heydər Əliyev müraciətində namizədliyini siyasi varisi hesab etdiyi Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini, Baş nazir İlham Əliyevin xeyrinə geri götürdüyünü bəyan etdi: O, "Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". Heydər Əliyev İlham Əliyevi yüksək intellektə, praqmatik düşüncəyə, müasir dünya siyasətini və iqtisadiyyatını dərindən bilən, enerjili və təşəbbüskar şəxsiyyət kimi xarakterizə edərək xalqı qarşıdan gələn seçkilərdə ona səs verməyə çağırdı və əmin olduğunu bildirdi ki, onun başladığı, lakin yarımçıq qalan bütün işləri məhz İlham Əliyev uğurla başa çatdıracaq. 15 oktyabr 2003-cü ildə keçirilən prezident seçkilərində İlham Əliyev 76.84 faiz səs toplayaraq inamlı qələbə qazandı və Azərbaycan Respublikasının Prezidenti seçildi. Həmin il oktyabrın 31-də İlham Əliyevin andiçmə mərasimi keçirildi və o, rəsmən Azərbaycan Respublikasının Prezidenti kimi səlahiyyətlərinin icrasına başladı.

2003-cü ilin avqust-oktyabr aylarında baş verən hadisələr Azərbaycanın gələcək inkişaf vektorunu müəyyən etdi. Andiçmə mərasimində Heydər Əliyev siyasətinə sadiqliyini bəyan edən Prezident İlham Əliyev fəaliyyəti dövründə bu strateji kursu davam və inkişaf etdirdi. Onun rəhbərliyi ilə ölkə iqtisadiyyatı əsasən enerji resurslarının ixracı hesabına sürətli artım nümayiş etdirdi. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, daha sonra isə TANAP və TAP kimi qlobal əhəmiyyətli enerji layihələri uğurla reallaşdırıldı. Ölkənin valyuta ehtiyatları dəfələrlə artdı, yoxsulluğun səviyyəsi kəskin şəkildə azaldı, genişmiqyaslı infrastruktur layihələri həyata keçirildi, şəhər və kəndlərin siması dəyişdi. Bu illərdə ordu quruculuğuna xüsusi diqqət yetirildi və Azərbaycan Silahlı Qüvvələri müasir silah və texnika ilə təchiz olunaraq regionun ən güclü ordularından birinə çevrildi. Məhz bu uzunmüddətli və məqsədyönlü hazırlığın nəticəsi idi ki, 2020-ci ildə 44 günlük Vətən müharibəsində Azərbaycan ərazi bütövlüyünü hərbi-siyasi yolla bərpa etdi. Bu tarixi Qələbə bir çoxları tərəfindən İlham Əliyevin prezidentlik fəaliyyətinin zirvəsi və Heydər Əliyevin Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə bağlı vəsiyyətini yerinə yetirməsi idi. 4 avqust 2003-cü il tarixi Azərbaycanın müasir tarixində bir mərhələnin bitib, digərinin başladığı gün oldu.

**Yusif ŞƏRİFZADƏ,**
**"Respublika".**